Respublika.- 2019.- 17 iyul.- S.7



# Nüfuzlu el ağsaqqalı



Xalqımızın tarixində və mədəniyyətində ağsaqqal sözünün, ağsaqqal insanın yeri olduqca mötəbər bir ucalıqdadır. Ən qədim nağıllarımızda, əsatirlərimizdə belə ağsaqqal insanın müqəddəsləşmiş bir obrazı var. Kiminsə bir çətinliyi olanda, onlar ağsaqqal yanına getmiş, ondan məsləhət almışlar. Hətta bəzən belə bir süjetə də rast gəlmək olar: gedib yaşı yüzü keçmiş bir ağsaqqaldan bir müşgülə əlac soruşanda, həmin ağsaqqal deyir ki, mən bu müşgülün əlacını bilmirəm, amma gedin dağ başında (yəqin ki, rəmzi olaraq - dağ başında) yaşayan, məndən 20 yaş böyük qardaşımdan soruşun. Həmin qardaş isə bilməyəndə özündən daha yaşlı başqa bir qardaşının, yaxud müdrikin-dünyagörmüşün yanına göndərir və s. Bir sözlə, ağsaqqal insan cəmiyyətimizdə hər zaman bir müdriklik rəmzi kimi qəbul olunub və ona böyük hörmət bəslənilib. Ağsaqqal insanlarımız da özünü bu ada uyğun olaraq aparmağa çalışıb. Əgər kimsə, bu ada xələl gətirəcək bir hərəkət edibsə, çox ciddi ictimai qınağa rast gəlib. Beləliklə, bütün tariximiz boyu ağsaqqallar cəmiyyətdə gedən proseslərin tənzimlənməsində, çətinliklərin ortadan götürülməsində, yeni nəslin formalaşmasında olduqca mühüm rol oynamışlar. Ağsaqqallıq missiyası bizim mədəniyyətimizin, inkişafımızın, tərəqqimizin, sosial həyatımızın ən aparıcı bir komponeti olubdur. Bizim mədəniyyət sistemimizin özül daşlarından biri ağsaqqallıq, ağbirçəklik institutudur. Lap bu yaxın keşmişə qədər, əhali, camaat üçün ərazilərində olan hökumət nümayəndələrindən daha çox öz ağsaqqallarının sözü daha mühüm, daha keçərli idi. Ləyaqətli ağsaqqalları, ağbirçəkləri olan hər bir yaşayış məskənində bir ahəngdarlıq müşahidə olunub, insanlar öz əxlaqları, mədəni davranışları ilə fərqləniblər. Ağsaqqal, ağbirçəklik institutu güclü olan ərazilərdə insanlar mənəvi dəyərlərə daha çox önəm verirlər. Çünki bu müdrik insanlar daim insanları mənəvi dəyərlərə kökləyir. Bir çoxlarının bu gün də əhəmiyyət vermədiyi bu məsələ sosioloji baxımdan olduqca mühümdür. Çünki bütün tarix göstərir ki, mənəvi dəyərlər öndə olduqda həmin o cəmiyyət özü-özünü ahəngdar olaraq tənzimləyir. Əksinə, mənəvi dəyərlər arxa plana keçdikcə həmin cəmiyyətdə gərginlik artır, kriminal vəziyyət güclənir, ağlagəlməz sosial bəlalar baş alıb gedir. Ona görə də mənfur düşmən qüvvələr hər hansı bir ərazidə öz hökmranlığını qurmaq üçün həmin ərazidə ilk əvvəl mənəvi dəyərləri dağıtmağa başlayırlar.

Xalqımızın hər zaman ağsaqqallıq, ağbirçəklik institutuna böyük ehtiyacı var. Son dövrlər ailə zəminində baş verən qorxunc hadisələr, cəmiyyətdə baş verən xoşagəlməz, arzuolunmaz, təhlükəli proseslərin bir çoxu həmin bu institutun zəifləməsi ilə bağlıdır. Şükür ki, cəmiyyətimizdə hələ də ləyaqəli, layiqli xeyli ağsaqqallarımız, ağbirçəklərimiz var. Hələlik mövcud olan bu potensialımız mənəvi dəyərlər sistemimizin daha layiqli bir şəkildə bərpa olunmasında çox böyük bir sərvət və imkanımızdır.

Olduqca ləyaqətli, nümunəvi ağsaqqallarımızdan biri ölkə ziyalılarının, siyasilərinin əksəriyyətinin yaxşı tanıdığı, xatirini əziz tutduğu, üz-gözündən nur yağan, Naxçıvan torpağının yetirdiyi Namiq Həsənovdur. O, sadəcə ləyaqətli, sayılan bir şəxs deyil. Hamının yekdilliklə qəbul etdiyi, hörmət etdiyi, hər sözünü bir müdrik kəlam kimi qəbul etdiyi *el ağsaqqalıdır.* Bu gün hansı naxçıvanlıdan soruşsan ki, Naxçıvandan olan hansı ağsaqqalların adını çəkə bilərsən, o ilk sırada Namiq müəllimin də adını deyəcəkdir. Namiq müəllim təkcə Naxçıvanın el ağsaqqalı, müdrik insanı deyil. O artıq uzun illərdir ki, Bakı şəhərində yaşayır. Müxtəlif tədbirlərdə iştirak edir, insanlarla sıx ünsiyyətdədir. Əksər ictimai fəallarımızdan da, müxtəlif təbəqədən olan ziyalılarımızdan da soruşsaq, yenə ləyaqətli ağsaqqallarımız sırasında Namiq müəllimin adı ön sırada olacaq. Bu gözəl insan barədə çoxlarının məlumatı var. Onun həyat yolunu bir daha qısa da olsa gözdən keçirək.

Namiq müəllim 1944-cü ildə Naxçıvan Muxtar Respublikasında, Cəhri kəndində müəllim ailəsində anadan olmuşdur. Atası Həsən müəllim öz əxlaqı, savadı, davranışı ilə kəndin, ümumiyyətlə Naxçıvanın sayılıb-seçilən müəllimlərindən biri idi. Namiq müəllim də kiçik yaşlarından öz zəkası, davranışı ilə kənd camaatının, müəllimlərin diqqət mərkəzində olmuşdur. Öz iti dərrakəsi ilə fizika, riyaziyyat fənlərinə daha çox maraq göstərmiş, elə ali təhsilini də bu sahədə almışdır. Amma xalqının taleyinə, ictimai həyata olan marağı onun cəmiyyətdə də fəal bir gənc kimi fərqlənməsinə səbəb olmuşdur. Ali məktəbi bitirdikdən sonra öz kəndlərində, daha sonra o zamanlar Muxtar Respublikanın ən qabaqcıl orta məktəbi olan, Naxçıvan şəhər 1 saylı məktəbində, Sovxoz texnikumunda fizika müəllimi işləmişdir. Bütün bu müddət ərzində bir ictimaiyyətçi kimi də fərqlənmişdir. Elə buna görə də 1969-cu ildə Naxçıvan şəhər komsomol komitəsində işə cəlb olunmuş, məktəbli gənclər şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. Yaşlı nəsil çox gözəl bilir ki, o zaman bu vəzifə olduqca nüfuzlu bir vəzifə idi və hər kəsi belə işə təyin etməzdilər. Komsomol işindəki fəaliyyəti ona öz intellektual və mənəvi potensialını daha dərindən üzə çıxara bilməsinə kömək etdi. Öz fəaliyyətində kifayət qədər fərqləndi və bu səbəbdən də 1973-79-cu illərdə Naxçıvan kimi bir şəhərin Komsomol Komitəsinin birinci katibi vəzifəsində çalışdı. Daha sonra o öz siyasi təhsilini daha da inkişaf etdirmək üçün Bakı Ali Partiya Məktəbində oxudu. Təhsilini başa vurduqdan sonra əmək fəaliyyətini Naxçıvan MR Daxili İşlər Nazirliyində davam etdirdi. 1983-92-ci illərdə bu nazirlikdə siyasi şöbə rəisi, nazir müavini vəzifələrində çalışdı. Hər kəsin bildiyi kimi, bu illər ölkəmizin tarixində olduqca mühüm illər idi. SSRİ-nin süqutu, dağıldığı, xalq hərəkatının formalaşdığı, müstəqillik yolunda bütün tərəqqipərvər qüvvələrin hərəkətə gəldiyi, eyni zamanda mənfur düşmənin, erməni nankorluğunun, vəhşiliyinin irəli atıldığı bu dövrlərdə həm güc strukturunda olub bölgədə asayişin qorunmasında böyük əmək sərf etmək, həm də milli azadlıq hərakatına fəal kömək etməklə xalqın rəğbətini, sevgisini qazanmaq böyük insani keyfiyyətlərdən xəbər verir. Həmin zaman Muxtar Respublika da düşmənin təzyiqi altında idi və orada da torpaqların, ümumiyyətlə Muxtar Respublikanın itirilməsi təhlükəsi yaranmışdı. Düşmən hücumlarının qarşısının alınmasında, bu sahədə polisin fəaliyyətinin təşkilində, sərhədboyu müdafiənin yüksək səviyyədə təşkil edilməsində Namiq müəllim fədakarcasına böyük əmək sərf etmişdir. Sədərək, Şərur, Günnüt, Kərməçətaq, Buzqov, Şada və digər döyüş zonalarında azğın düşmənin geri oturdulmasında, necə deyərlər, müsəlləh əsgər olmuş, mühüm təşkilati işlər görmüşdür. Bütün bu gərgin fəaliyyəti zamanı əhali ilə çiyin-çiyinə olması, onlarla çox səmimi, qayğıkeş, namuslu qarşılıqlı əlaqəsi Naxçıvan camaatı arasında onun nüfuzunu xeyli artırmışdır. Elə bu keyfiyyətlərinə görə də o zaman Muxtar Respublikanın rəhbəri olan Heydər Əliyev onu Naxçıvan MR Ali Məclisində Dövlət quruculuğu, yerli dövlət hakimiyyəti orqanları şöbəsinin müdiri vəzifəsinə dəvət etdi.

1993-cü ildə Heydər Əliyev yenidən ölkəyə rəhbərlik etməyə başlayanda, Namiq müəllimin nüfuzunu, işgörmə qabiliyyətini, intellektini, mənəvi keyfiyyətlərini nəzərə alaraq, Muxtar Respublikada öz yerinə tövsiyə etdi. O 1994-cü ilin aprel ayında Muxtar Respublikada Ali Məclisin sədri vəzifəsinə seçildi. 1995-ci ilin iyul ayınadək bu vəzifədə çalışdığı zaman da hamı onu olduqca sadə, qayğıkeş, müdrik bir insan kimi tanıdı. Hər kəsə imkanı, səlahiyyəti daxilində kömək etdi. Beləliklə, uzun müddət Naxçıvanda rəhbər vəzifələrdə çalışsa da hər zaman öz təvazökarlığını, ədalət hissini, insanlara qayğıkeşliyini saxladı. Ona görə də bütün Naxçıvan əhalisi onu özünün ləyaqətli bir ağsaqqalı kimi səmimi qəlbdən çox sevir.

Bakıya köçdükdən sonra ölkənin vətənpərvər olan bütün ziyalıları ilə əlaqələri daha da gücləndi. Onunla təmasda olan hər bir adam öz qarşısında xalqımızın bütün müsbət milli keyfiyyətlərini özündə birləşdirən, geniş dünyagörüşlü, yüksək zəkalı, daima haqq işini müdafiə edən cəzbedici, nurlu, gözəl bir insan görür. Namiq müəllimlə bir-iki dəfə təmasda olan hər kəsdə ona qarşı bir rəğbət yaranır.

Namiq müəllimin sonrakı fəaliyyəti Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bağlıdır. O bu nazirlikdə 1995-2000-ci illərdə nazir müavini vəzifəsində çalışdı. Bu vəzifədə də öz həyat prinsiplərinə sadiq qaldı. Hər zaman yalnız və yalnız ədalətin tərəfində oldu. Yenə də səlahiyyəti, imkanı daxilində hər kəsə kömək etdi, insanların qayğısına qaldı.

Belə gözəl insanlarımızın hər biri elə öz davranışları ilə xalqımızın mənəviyyatının saflaşmasında nümunəvi xidmət göstərirlər. İndi Namiq müəllim nüfuzlu el ağsaqqalıdır. Allah ona öz uğurlarının fərəhi içində uzun ömür, cansağlığı versin. Belə insanların çox yaşaması xalqı üçün də bir qənimətdir! 75 yaşınız mübarək, Namiq müəllim!

**Əhməd QƏŞƏMOĞLU.**